Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**



# Azərbaycanın ailə modeli ən böyük dəyərdir

## İdeal ailələri birləşdirən təkcə qan bağı yox, sevgi, hörmət və bir-birini başadüşmə qabiliyyətidir

**15 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Məqsəd bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltmək, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsidir.**

Ailənin cəmiyyətin və dövlətin tərəqqisində oynadığı rolu, eyni zamanda dahi mütəfəkkirlər, sosioloqlar da təsdiqləyiblər. Onlar insanın şəxsiyyət kimi yetişməsində, sosiallaşmasında xalqın milli-mənəvi keyfiyyətlərinin gələcək nəsillərə ötürülməsində ailəni altqurum hesab edirlər. Tanınmış sosioloq Parsonsun fikrincə, ailə cəmiyyətə qarşı durmur, əksinə, sosiumun stabilliyini təmin edən altsistemdir: "Ailə digər sosial altsistemlər və strukturlarla münasibətlər qurmaq üçün dəqiq, eyni zamanda şəxslərarası sabitliyin dinamikasının və inteqrativ tendensiyaların qorunması istiqamətində təsirli əlaqələr yaradır".

Qeyd edək ki, Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub.  Azərbaycan ailəsi uzunömürlülüyü və möhkəmliliyi ilə dünyada ən yaxşı modellərdən biridir. Dövlət bu modelin qorunub saxlanılması üçün müxtəlif siyasi proqramlar hazırlayır, sosial layihələr həyata keçirir. Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Lakin nikahın pozulması və ümumilikdə ailə institutunun dağılması halları ilə bağlı rəsmi statistik rəqəmlər bu sahədə həlli vacib problemlərin aktuallığını zəruri edir.

Mütəxəssislər isə hesab edir ki, ailə dəyərlərimizin təbliğində ictimai rəyi formalaşdıran KİV-in, xüsusilə televiziyanın üzərinə böyük iş düşür. Milli-mənəvi dəyərlərin təbliği ictimai və dövlət televiziyalarının başlıca fəaliyyət prinsiplərinə daxil olduğundan bunu görmək olar. Lakin özəl telekanallarda ailə dəyərlərimiz demək olar ki,  təbliğ olunmur. Şou və reklam dalınca qaçan TV kanallar sosial-məişət mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsini nümayiş etdirirlər. Halbuki Azərbaycan cəmiyyətinin nümunəvi ailələri müqayisə olunmayacaq dərəcədə üstünlük təşkil edir və bu nisbətdə qat-qat çoxdur. Düzdür, ailələrin problemlərini işıqlandırmaqla cəmiyyətin qüsurlarını göstərmək olar, lakin burada balans pozulmamalıdır. KİV-in dünyaya inteqrasiyası, əhatə dairəsi nəzərə alınaraq, xalqı təmsil edən ailələrin həmin xalq haqqında rəy formalaşdırması unudulmamalıdır. Media həm də müxtəlif sosial təbəqələrdən olan sağlam fikirli, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaşadan nümunəvi ailələri göstərməli, təbliğ etməlidir. Və bu tip ailələrin mükəmməlliyinin, uzunömürlüyünün sirlərini açmaqla yeni həyat quracaq gəncləri maarifləndirmiş ola bilər.

Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin təbliği məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ailə bayramı hər il müxtəlif bölgələrdə təşkil olunur. Bu tədbirlərdə Azərbaycanın əksər rayonlarından iştirak edən 100-dən çox ailə öz xüsusi bacarığını göstərir.

"Gənc Ailələrin I Forumu"nda iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki,  Azərbaycanda ailə məfhumuna müqəddəs yanaşmadan söz açan sədr bildirib  ki, ailənin qarşısında duran əsas vəzifələrdən biri də cəmiyyət üçün faydalı vətəndaş yetişdirməkdir: "Həyata keçirilən bütün siyasətlərin mərkəzində insan amilinin dayandığını qeyd edən sədr, dövlət ailə siyasətinin də yalnız ailələrimizin rifahı, inkişafı, sağlamlığı və təhlükəsizliyinə xidmət etdiyini söyləyib. O, insanların ilk sosial mühiti olan ailənin rahat, ahəngdar, təhlükəsiz şəraitdə olmasının bütün insanlığın marağında olduğunu, Beynəlxalq Ailə Günü ərəfəsində bütün dünya ölkələrində olduğu kimi ölkəmizdə də müxtəlif tədbirlərin, müsabiqələrin keçirildiyini diqqətə çatdırıb. B.Muradova çıxışının sonunda dövlət qurumu olaraq, cəmiyyətin müxtəlif təbəqələri, eləcə də ictimai sektorla əməkdaşlıq çərçivəsində ailə məsələlərinin daim diqqətdə saxlandığını və bu istiqamətdə təşəbbüslərin dəstəklənməsinə maraqlı olduğunu bildirib. Digər layihələr kimi, Assosiasiya ilə birgə reallaşdırılan bu Forumun da uğurla yekunlaşacağına ümidini ifadə edib".

**Uşaq İnkişaf Mərkəzinin rəhbəri Aynur Musayeva isə hesab edir ki,  ailə kiçik dövlətdir. Onun rəhbəri, cəmiyyəti və ictimaiyyəti var. Onun qanunları, qaydaları işlək olmalıdır. Onu qorumaq qanunlarla təmin olunur. Ailə cəmiyyətin ən vacib dayağıdır.** Bu dayağın möhkəm olması xalq və dövlətin də sağlam olması deməkdir: "Ailənin öz dəyərləri var.

Mədəni və sağlam təməllər üzərində qurulan ailə bağları möhkəm olar. Belə ailələr cəmiyyət içərisində özünəməxsus davranış, xasiyyət və digər xüsusiyyətləri ilə seçilirlər. Eyni zamanda ideal ailələrdə fərdlərin öz müstəqilliklərini hiss etməsi onların mənəvi rahatlığına və bunun nəticəsində zehni və əqli inkişaf qabiliyyətinin güclənməsinə səbəb ola bilir. Gənclərimiz sağlam təməllər üzərində ailə quraraq cəmiyyətə yararlı övlad yetişdirməyi cəmiyyət qarşısında özlərinin başlıca vəzifəsi hesab etməlidirlər. Düzgün ailə modeli əvəzolunmaz sərvətdir. İdeal ailələri birləşdirən isə təkcə qan bağı yox, sevgi, hörmət və bir-birini başadüşmə qabiliyyətidir".

O bildirib ki, ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət ailə siyasəti Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu inkişafını tapıb. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafında da öz təsdiqini tapmaqdadır".

Sosioloq Əhməd Qəşəmoğlu da "Şərq"ə açıqlamasında deyib ki, ailə cəmiyyətin sosial mərkəzidir və o mərkəzin idarəsində ahəng önəmlidir: "Bu ahəngi ailədə yarada biliriksə, cəmiyyətimizdə də ahəng, uyğunluq və möhkəm təməl olur. Azərbaycanın ailə modeli, ailə institutu ölkənin ən böyük mənəvi dəyərlərindən biridir. Gərək bilək ki, ən böyük mənəvi dəyərimiz ailə institutudur və onu qorumalıyıq. İndi dünyada elə proseslər gedir ki, mənəvi problemlər arxa plana keçməkdə və maddi dəyərlər önə çıxmaqdadır. Bu, bizim cəmiyyətdə də baş verir. Ən xoşagəlməz hal budur ki, maddi dəyərlərə üstünlük verdiyimiz halda, mənəvi dəyərlərimiz çox güclü təzyiqə məruz qalır, bundan da ailə və cəmiyyət zərər görür. Çalışmaq lazımdır ki, ailədə mənəvi dəyərləri ön sırada saxlayaq. Bu ailənin cəmiyyətdə sağlam yer qazanmasına kömək edəcək".

**Şəymən Bayramova**